**Mübariz Məmmədhüseyn oğlu BAĞIROV** i.e.d., prof
Qərbi Kaspi Universiteti
"Maliyyə və mühasibat" kafedrasının müdiri,
E-mail: mubariz.bagirov61@gmail.com

**Amirə Cabbar qızı İSMAYILOVA**
Azərbaycan Kooperasiya Universiteti, doktorant
E-mail: amire1986@mail.ru

# AZƏRBAYCANLA ƏLAQƏDƏ OLAN BEYNƏLXALQ MALİYYƏ KREDİT TƏŞKİLAT-LARININFƏALİYYƏT PRİNSİPLƏRİ

**Xülasə**

Məqalədə beynəlxalq maliyyə kredit təşkilatlarının fəaliyyətinin ümumi xarakteristikası verilmiş-dir. Həmin xarakteristikanın əsas parametrlərinə görə ilk və ən böyük belə bir təşkilat olan Beynəlxalq Valyuta Fondunun ölkələrdə həyata keçirdiyi fəaliyyət istiqamətləri açıqlanmışdır.

Azərbaycan Respublikası müstəqillik illərindən sonra BVF-na üzv olaraq onunla qarşılıqlı təmasa başlaması və bu əlaqə üzrə həyata keçirilən fəaliyyət istiqamətləri məqalədə geniş izah olunmuşdur. Belə qarşılıqlı fəaliyyətin əsas istiqamətləri bir neçə prinsipin qorunması vasitəsilə reallaşdırılır ki, həmin prinsiplər ayrı-ayrılıqda izah olunmuşdur.

Beynəlxalq Valyuta Fondu ilə qarşılıqlı fəaliyyət ölkəmizdə dayanıqlı və davamlı iqtisadi ikişafın təməlini yaratması xətti məqalədə əsaslandırılmışdır. Bunun üçün zəruri olan fəaliyyət istiqamətləri və onun nəticələri şərh olunmuşdur.

Məqalədə beynəlxalq maliyyə kredit təşkilatlarından biri olan Dünya Bankının və onun struktur elementlərinin fəaliyyət prinsipləri əks olunmuşdur. Həmin prinsiplərin ölkə iqtisadiyyatına təsiri əsaslandırılmış, beynəlxalq iqtisadi əməliyyatların yerinə yetirilməsində onların rolu izah olunmuş-dur.

**Açar sözlər:** *beynəlxalq maliyyələşmə, beynəlxalq maliyyə təşkilatları, fəaliyyət prinsipləri, dayanıqlı inkişaf, inteqrasiya*

**DOI:** https://doi.org/10.54414/HMKB9656

## Giriş

Ötən əsrin yaddaqalan mühüm parametrlərindən biri də ölkələrarası inteqrasiyanın güclənməsi və qloballaşmanın xüsusi əhəmiyyət kəsb etməsi idi. Bu proses dünya miqyasında çox volotil olan həm siyasi, eləcə də iqtisadi proseslərin təsiri altında baş vermişdir. Əsrin sonunda SSRİ-nin dağılması nəticəsində bir sıra öllkələrin müstəqillik əldə etməsi, eyni zamanda Şərqi Avropa ölkələrinin SSRİ- nin təsir dairəsindən çıxması, ölkələrarası inteqrasiya proseslərinə yeni xarakter verdi.

Müstəqillik əldə edən ölkələrdən biri də Azərbaycan idi. Ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq, daha dəqiq desək Azərbaycan Respublikası 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna üzv olmuşdur. Beynəlxalq aləmdə inteqrasiya və qloballaşma proseslərinin fəal üzvünə çevrilmək üçün bütün ölkələrin beynəlxalq maliyyə-kredit təşkilatlarına üzv olmaları vacib şərtlərdən biridir. Çünki müstəqilliyini yenicə əldə etmiş olan ölkələrin dinamik inkişafının təmin edilməsində beynəlxaq kredit təşkilatlarının rolu əvəzsizdir. Bu təş-

kilatlar bir tərəfdən müstəqil ölkələrin müstəqilliyinin möhkəmləndirilməsini təmin edir, digər tərəfdən isə onların yeni beynəlxalq iqtisadi münasibətlərin aktiv iştirakçılarına çevrilməsini şərtləndirirlər.

Beynəlxalq iqtisadi münasibətlərdə fəal iştirakçı olmaq üçün ölkələr ilk növbədə özünün həm siyasi, həm də iqtisadi müstəqilliyini əldə etməli və bu əsasda inteqrasiya proseslərinə qoşulmalıdırlar. (1, səh 4)

1991-ci ildən başlayan müstəqillik dövründə Azərbaycanın apardığı iqtisadi siyasət nəticəsində dayanıqlı və davamlı inkişaf təmin olunmuş, perspektiv və strateji inkişaf üçün etibarlı baza yaradılmışdır. Bu nəticələrin əldə olunmasında Beynəlxalq Valyuta Fondunun, onun strukturuna aid olan maliyyə təşkilatlarının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının və s. mühüm rolu olmuşdur. Qeyd edilən təşkilatların hər birinin öz fəaliyyət prinsipləri və məqsədləri vardır.

2.Beynəlxalq maliyyə kredit təşkilatları ilə əlaqələrin istiqamətləri. Dünya ölkələrinin hər birində sosial, iqtisadi maliyyə münasibətlərinin normal şəkildə inkişaf etməsi, dayanıqlı və davamlı inkişafın təmin edilməsi bir çox amillərdən asılıdır. Belə amillərdən biri də ölkənin beynəlxalq kredit təşkilatları ilə əlaqənin olmasından və bu əlaqənin hansı səviyyədə inkişaf etməsindən ibarətdir.

Dünya təcrübəsi göstərir ki, Beynəlxalq Maliyyə Kredit təşkilatları ilə əlaqə quran ölkələrdə iqtisadi inkişaf sürətlənir, beynəlxalq bazarlara çıxış asanlaşır, iqtisadi inkişafın bir çox müsbət meylləri formalaşır. Həmin təşkilatlarla əlaqələrin genişlənməsi daha çox inkişaf etməkdə olan ölkələrə təsir edir. Çünki, belə ölkələrin qarşısında həlli zəruri olan çoxsaylı problemlər mövcud olur. Belə ölkələr üçün səciyyəvi olan bir sıra problemlər vardır ki, onlar məhz beynəlxalq maliyyə kredit təşkilatlarının köməyi ilə daha tez və uğurla həll edilirlər. İqtisadi sistemlərində zəruri transformasiya prosesini yaşayan ölkələrdə beynəlxalq maliyyə kredit təşkilatlarının dəstəyi ilə bu proses beynəlxalq təcrübəyə əsasən aparılır və öz nəticələrini də dərhal göstərir. (2, səh 21)

İnkişaf etməkdə olan ölkələrdə beynəlxalq maliyyə kredit təşkilatlarının fəaliyyəti üçün zəruri şəraitin olması, eləcə də həmin təşkilatların fəaliyyət istiqamətində lazımi parametrlərin olması vacib şərtdir. Bu şərtlərin olması həmin təşkilatların ayrı-ayrı ölkələrdə müxtəlif istiqamətlərdə fəaliyyət göstərməsinə şərait yaradır.

İlkin olaraq beynəlxalq təşkilatlar fəaliyyətini qurmaq istədikləri ölkələrdə siyasi, iqtisadi, sosial və s. vəziyyətləri təhlil edərək ilkin fəaliyyət istiqamətlərini müəyyən edirlər. Bir qayda olaraq inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafın normal bir vəziyyətə gətirilməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün parametrlərin yaradılması başıanğıc vəzifə kimi qarşıda durur. Ötən əsrin sonlarında yenidən müstəqillik əldə edən ölkələrdə, eləcə də Şərqi Avropa ölkələrində başlanan iqtisadiyyatın transformasiyası prosesi bütövlükdə beynəlxalq maliyyə-kredit təşkilatlarının maraq dairəsində və nəzarətində olmuşdur. Bu sahədə daha fəal və yaxından iştirak edən təşkilat Beynəlxalq Valyuta Fondu olmuşdur.

Azərbaycan Respublikasının Beynəlxalq Valyuta Fondunun 1992-ci ildə üzv olaraq onunla qarşılıqlı təmasa başlamışdır. Bu təşkilatın ona üzv olan ölkələrdə həyata keçirdiyi əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir: ölkənin tədiyyə balansının sabit vəziyyətinin qorunması, ölkədə aparılan bu və ya digər istiqamətdə həyata keçirilən islahatların reallaşdırılması üçün kreditlərin verilməsi, kiçik və orta biznesin dəstəklənməsi, sosial və infrastruktur layihələrinə investisiya yatırımlarının həyata keçirilməsi, struktur islahatlarının dəstəklənməsi, idarəetmə sistemində restrukturizasiya proseslərinə vəsaitlərin ayrılması və s. Bir qayda olaraq Beynəlxalq Valyuta Fondu ölkəmizə ayırdığı kreditləri bizim üçün səmərəli şərtlər daxilində, bir qayda olaraq uzun müddətə vermişdir. (3, səh7)

Sözügedən təşkilatın ölkəmizdə həyata keçirdiyi fəaliyyət davamlı inkişafın təmin edilməsi prinsipinə söykənmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlər ölkədə demokratiyanın təmin edilməsi, iqtisadi artım dinamikasının fəaliyyət məqsədinə çevrilməsi, iqtisadiyyatın sürətli transformasiyası vasitəsilə ölkədə bazar iqtisadiyyatının bərqərar olunması, mövcud qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, insan haqqlarının qorunması üçün təməl prinsiplərin yaradılması, ölkələrarası inteqrasiyanın inkişaf etdirilməsi, mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, iqtisadiyyatın zəruri sahə və sektorlarına investisiya yatırımlarının artırılması və s. aiddir. (7, səh 214)

Qeyd olunanlarala yanaşı Beynəlxalq Valyuta Fondu və eləcə də digər beynəlxalq maliyyə təşkilatları ölkəmizdə ayrı-ayrı sahələrdə çoxşaxəli fəaliyyətlərini həyata keçirmişlər. Ölkələrdə iqtisadiyyatın bütün sahələrinin dayanıqlı inkişafının təmin olunması beynəlxalq maliyyə təşkilatlarının fəaliyyət prinsiplərindən biridir. Məhz bu prinsipin reallaşdırılması çərçivəsində həyata keçirilən tədbirlərə işğal olunmuş ərazilərdə bərpa işlərinin aparılmasını, ayrı-ayrı sahələrdə ekoloji layihələrin icra edilməsini, aqrar sektorda irəliləyişə nail olmaq üçün beynəlxalq təcrübəyə uyğun fermer təsərrüfatlarının formalaşdırılmasını, özəl sektorda rəqabətqabiliyyətli atmosferin yaradılması üçün müxtəlif istiqamətli tədbirlərin həyata keçirilməsini, iqtisadiyyatın bütün sahələrində normal, sabit inkişafı təmin edə biləcək normativ-hüquqi bazanın formalaşdırılmasına dəstək verilməsini və s. aid etmək olar. (4, səh 116)

Beynəlxalq maliyyə təşkilatlarının ölkəmizdəki fəaliyyət təcrübəsi göstərir ki, burada bu və ya digər sahədə ayrı-ayrı iri layihələrin reallaşdırılması üçün böyük məbləğdə kredit qoyuluşlarının ayrılması və eləcə də həmin istiqamətlərdə inkişaf konsepsiyasının hazırlanması bu təşkilatların əsas fəaliyyət prinsiplərindən biridir. Məhz bu prinsiplərin yerinə yetirilməsi vasitəsilə Azərbaycan Respublikası öz fəaliyyətində çox mühüm irəliləyişlər əldə etmişdir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən ən mühüm beynəlxalq maliyyə kredit təşkilatlarından biri də Dünya Bankıdır. Bu təşkilatın strukturuna aşağıdakılar daxildir:

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB)

Beynəlxalq Maliyyə Korporasiyası (BMK)

Beynəlxalq İnkişaf Assossasiyası (BİA)

İnvestisiya Mübahisələrinin həlli üzrə Beynəlxalq Mərkəz (İMHBM)

İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik (İTÇA)

Bu təşkilatların fəaliyyət prinsipləri onların fəaliyyət istiqamətlərindən və xarakterindən asılı olur. Bir qayda olaraq həm bu təşkilatlar, həm də regional xarakterli beynəlxalq maliyyə təşkilatları üçün bir sıra inkişaf istiqamətləri, cəhətlər xarakterikdir. Onlara beynəlxalq ticarətdə idxal və ixrac əməliyyatları üzrə mövcud olan problemlərin aradan qaldırılması, inteqrasiya proseslərinin əsas parametrlərinin təşviq olunması, inkişaf etməkdə olan ölkələr kateqoriyasına aid olan ölkələrdə inkişafı dəstəkləməklə dinamikaya nail olunması, sərbəst ticarətin dəstəklənməsi vasitəsilə beynəlxalq aləmdə aktiv fəaliyyətə əsaslanan sıx iqtisadi əməkdaşlığın yaradılması və s. aid oluna bilər. (5, səh 160)

Paralel olaraq qeyd etmək lazımdır ki, Beynəlxalq Valyuta Fondu beynəlxalq maliyyə kredit təşkilatlarının aparıcısı olmaqla dünya miqyasında ən vacib sayılan məsələlər olan beynəlxalq valyuta kredit münasibətləri sferasında əməkdaşlığın təşkili, tənzimlənməsi və stimullaşdırılması, müxtəlif variant və yollarla beynəlxalq aləmdə sabitliyin təmin edilməsi, beynəlxalq aləmdə idxal və ixrac əməliyyatlarının tə\min edilməsi, üzv ölkələrdə məşğulluq səviyyəsinin bu və ya digər üsullarla artırılması, yoxsulluq səviyyəsinin aşağı salınması davamlı iqtisadi artımın təmin edilməsi və s. icra edir. Bu istiqamətdə fəaliyyət onun fəaliyyət prinsipinə çevrilmişdir. (6, səh 93)

Bunlardan başqa Beynəlxalq Valyuta Fondunun fəaliyyətində mühüm prinsipə çevrilən digər əməliyyatlar da vardır. Ümumilikdə həmin əməliyyatlar həmin təşkilata üzv ölkələrdə ümumi inkişaf istiqamətlərinin təmin edilməsində dəstəyə yönəlmişdir. Həmin əməliyyatlar aşağıdakılardan ibarətdir:

- ölkə iqtisadiyyatında idarəetmənin yaxşılaşdırılması məqsədilə ölkələrə zəruri yardımların göstərilməsi;
- iqtisadiyyatın bu və ya digər sahəsinin inkişafı üçün texniki yardım göstərilməsi və bu fəaliyyət istiqamətində prinsiplərin reallaşdırılması; ölkədə mövcud olan inkişaf meyllərini nəzərə alaraq ölkənin hökümətlərinə və eləcə də ayrı-ayrı nazirliklərə bu və ya digər fəaliyyət istiqaməti üzrə məsləhətlərin verilməsi;
- bütövlükdə ölkə iqtisadiyyatının fəaliyyətinə dair məsələlər üzrə təhlillərin aparılması və bu əsasda strateji inkişaf proqnozlarının hazırlanması;
- ölkədə mövcud bazarlar üzrə monitorinqin aparılması və onların davamlı inkişafı üçün tövsiyyələrin hazırlanması;
- ölkə iqtisadiyyatında problemlər yarandığı halda onlara borcların təqdim olunması;
- ölkələrdə məşğulluğun səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin artırılması istiqamətində yardımların göstərilməsi;
- ölkələrdə yoxsulluğun azaldılması məqsədilə onlara uzunmüddətli güzəştli kömək göstərilməsi (müxtəlif şərtlərlə borcların və kreditlərin verilməsi);
- ölkələrin tədiyyə balansında problemlər yarandıqda onlara zəruri köməyin göstərilməsi və s.

Dünya təcrübəsi göstərir ki, ölkələrin sürətli və dinamik inkişaf etməsində beynəlxalq maliyyə kredit təşkilatlarının rolu getdikcə artır. Bu hər şeydən əvvəl onunla əlaqədardır ki, beynəlxalq maliyyə kredit təşkilatları etibarlı maliyyə mənbələrinə və eləcə də manevr imkanlarına malikdir. Həmin təşkilatlar bu imkanlarından geniş istifadə edirlər.

**Nəticə**

Tərəfimizdən aparılan araşdırma göstərir ki, Azərbaycan Respublikasının müstəqillik qazandıqdan sonra Beynəlxalq Valyuta Fonduna üzv olmaqla zəruri inteqrasiya proseslərinə qoşulmaq üçün imkan əldə etmişdir. Araşdırmada yalnız BVF ilə əlaqələrin nəzərdən keçirilməsi onunla əlaqədardır ki, bu təşkilat Azərbaycanın üzv olduğu ilk və dünyada ən böyük təşkilatdır.

Bu təşkilatın fəaliyyət prinsiplərinin araşdırılması onu göstərir ki, dünya miqyasında o prinsiplərin qorunması bəşəriyyət üçün etibarlı gələcək vəd edir. Azərbaycanda müstəqillik yolunda atılan ilk addımlar məhz bu təşkilatın dəstəyi ilə baş vermişdir. Azərbaycan həm makro, həm də mikro səviyyədə əldə etdiyi səmərəli nəticələri məhz qlobal səviyyədə qurmuş olduğu inteqrasiya əlaqələri vasitəsilə əldə etmişdir. Bu əlaqələrin genişləndirilməsi və sürətlənməsi ölkəmizin iqtisadiyyatı üçün etibarlı gələcək vəd edir.

Beynəlxalq Valyuta Fondu ilə əlaqələrin möhkəmlənməsi ölkə iqtisadiyyatı üçün ən zəruri parametrlərin qorunub saxlanmasına və təkmilləşdirilməsinə xidmət edir. Elə bu vasitənin köməyi ilə ölkəmiz həm geosiyasi, həm də geoiqtisadi məkanda öz mövqeyini qoruyub saxlaya və daha da möhkəmləndirə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Dünya Bankının "Qlobal İqtisadi Perspektivlər" hesabatı, aprel 2022
2. Beynəlxalq Valyuta Fondunun "Dünya iqtisadiyyatının icmalı" və "Qlobal Maliyyə Sabitliyi" hesabatları. may 2022
3. Abbasov Q.M. "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları". Monoqrafiya. Elm nəşriyyatı. Bakı 2005, 260 səh.
4. Mehdiyev R.Ə. "Azərbaycan: qloballaşmanın tələbləri". Bakı. Elm nəşriyyatı. 2005, 265 səh.
5. Аникин О.Б. «Международные валютно-финансовые и кредитные отношение». Фин.Издат. 2018, 240 стр.

6. Самойлов Г.А. «Финансовые отношение как инструмент государственного регулирование экономики». Наука издат. 2019. 320 стр.

7. Звонова Е.А. «Международное внешнее финансирование в современной экономике». Изд.Экономика, 2019, 324 стр.

8. Beynəlxalq Valyuta Fondu – www.imf.org

**Мубариз Мамедгусейн оглы БАГИРОВ** д.э.н., проф.
Западно-Каспийский Университет
Заведующий кафедрой "Финансы и бухгалтерский учет"
E-mail: mubariz.bagirov61@gmail.com

**Амира Джаббар кызы ИСМАИЛОВА**
Азербайджанский Университет Кооперации, Докторант
E-mail: amire1986@mail.ru

# ПРИНЦИПЫ РАБОТЫ ФИНАНСОВЫХ МЕЖДУНАРОДНЫХ КРЕДИТНЫХ ОРГАНИЗАЦИЙ ВЗАИМОДЕЙСТВУЮЩИХ С АЗЕРБАЙДЖАНОМ

**Резюме**

В статье дана общая характеристика деятельности международных финансовых кредитных организаций. По основным параметрам этой характеристики были определены направления деятельности Международного валютного фонда, который является первой и крупнейшей такой организацией.

В статье подробно раскрыты истоки сотрудничества Азербайджанской Республики с Международным валютным фондом (МВФ) после получения страной независимости, а также основные направления деятельности, осуществляемые в рамках этой связи. Взаимодействие между Азербайджаном и МВФ осуществляется на основе нескольких принципов, которые подробно излагаются в статье.

Статья последовательно подтверждает, что сотрудничество с Международным валютным фондом является фундаментом устойчивого и долгосрочного экономического развития в Азербайджане. В этом контексте были определены ключевые направления деятельности и достигнуты соответствующие результаты, что явно отражено в статье.

В статье приведены принципы работы Всемирного банка, одной из ведущих международных финансовых кредитных организаций, а также его структурных компонентов. Эта статья также обосновывает влияние данных принципов на экономику страны и разъясняет их роль в осуществлении международных экономических операций.

**Ключевые слова:** международное финансирование, международные финансовые организации, принципы деятельности, устойчивое развитие, интеграция.

**Mubariz Mammadguseyn BAGİROV** Doctor of Economics
Western Caspian University
Head of the Department of Finance and Accounting,
E-mail: mubariz.bagirov61@gmail.com

**Amira Jabbar ISMAİLOVA**
Azerbaijan University of Cooperation,
PhD student
E-mail: amire1986@mail.ru

## PRİNCİPLES OF OPERATİON OF İNTERNATİONAL FİNANCİAL CREDİT ORGANİZATİONS İNTERACTİNG WİTH AZERBAİJAN.

**Resume**

The article provides a broad overview of the operations of international financial credit organizations. Based on the key parameters of this description, the article delineates the activities of the International Monetary Fund (IMF), which holds the distinction of being the foremost and largest organization of its kind across nations.

The article provides a detailed account of the initiation of cooperation between the Republic of Azerbaijan and the International Monetary Fund (IMF) following the country's independence, along with an in-depth exploration of the primary activities undertaken within this context. The interaction between Azerbaijan and the IMF is governed by several principles, which are thoroughly elucidated in the article.

The article consistently confirms that cooperation with the International Monetary Fund is the foundation of sustainable and long-term economic development in Azerbaijan. In this context, the key areas of activity were identified and the corresponding results were achieved, which is clearly reflected in the article.

The article describes the principles of the World Bank, one of the leading international financial credit organizations, as well as its structural components. This article also substantiates the impact of these principles on the country's economy and explains their role in the implementation of international economic transactions.

**Keywords:** international finance, international financial organizations, principles of activity, sustainable development, integration.

**Daxil olub:** 24.02.2023